# BƏDİİLİKLƏ ELMİLİYİN QOVUŞUĞUNDA



*Yusif YUSİFLİ,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, professor*

***Məqalədə yazıçı-ədəbiyyatşünas Vaqif Sultanlının həyat və yaradıcılıq yolu sistemli şəkildə təhlil obyektinə çevrilir. Burada müəllifin bədii əsərləri ("İnsan dənizi", "Səhra savaşı" romanları, "Ölüm yuxusu" povesti və hekayələri) onun elmi yaradıcılığı ilə ("Ağır yolun yolçusu", "İstiqlal sevgisi", "Azərbaycan ədəbi tənqidi", "Azərbaycan mühacirət ədəbiyyatı") müqayisəli şəkildə araşdırılır. Təhlil prosesində bədiiliklə elmiliyi qovuşduran, birləşdirən məqamlara diqqət yetirilir. Araşdırmada Vaqif Sultanlının ədəbi-bədii və elmi-nəzəri irsinin çağdaş Azərbaycan ədəbiyyatı kontekstində dəyərləndirilməsinə çalışılır.***

* * *

İstedadlı yazıçı, ədəbiyyatşünas-tənqidçi və tərcüməçi Vaqif Sultanlının apardığı yaradıcılıq işləri çox geniş, dolğun, həm də maraqlıdır. Bunu onun keçirdiyi zəhmətlə dolu mənalı həyat yolundan görmək mümkündür. O, 1981- ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş, 1984-cü ildə namizədlik, 1997-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir.

1985-ci ildən uğurla bitirdiyi təhsil ocağının Müasir Azərbaycan ədəbiyyatı kafedrasında müxtəlif vəzifələrdə çalışan Vaqif Sultanlı hazırda həmin universitetin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professorudur. Onu qarşısına qoyduğu məqsədə çatmaqdan ötrü yerinə yetirəcəyi vəzifələrə həmişə yüksək vətəndaşlıq ləyaqəti mövqeyindən yanaşmağı bacaran yaradıcı şəxsiyyət adlandırsaq, heç də yanılmarıq.

1991-ci ildə Ümumdünya Azərbaycanşünaslar Assosiyasını yaratması və onun sədri seçilməsi, qurumun orqanı kimi "Azərbaycanın səsi" qəzetini təsis etməsi, 1997-ci ildə ABŞ-ın Los-Anceles şəhərində yaradılmış Dünya Azərbaycanlıları Konqresinin fəal üzvlərindən biri olması, dəfələrlə təşkilatın İdarə Heyətinin üzvü seçilməsi, 1995-1998-ci illərdə Amerikanın "Azadlıq və Azad Avropa" radiostansiyalarının Azərbaycan redaksiyasında ədəbi verilişlər üzrə müxbir işləməsi, baş redaktorluğu ilə Polşada "Xudafərin", İsveçdə "Araz", ABŞ-da "Dünya azərbaycanlıları" dərgiləri, Bakıda "Filoloji araşdırmalar", "Müasir ədəbiyyat məsələləri" adlı məqalələr toplularu çap etdirməsi, "Yovşan ətri" adlı ilk hekayəsinin tələbəlik illərində işıq üzü görməsi, bədii yazılarının "Sönmüş ulduzlar" (1988), "İnsan dənizi" (1992), "Qul bazarı" (1999), "Ölüm yuxusu" (2002), "Heçlik vadisi" (2010), "Səhra savaşı" (2015), "Tərs axın" (2023) və başqa kitablarında yayınlanması və s. onun zəngin yaradıcılıq fəaliyyətini əks etdirir.

* * *

Vaqif Sultanlı yaradıcılığa həcmcə, formaca kiçik, yığcam janr sayılan hekayələr yazmaqla başlamışdır. Onun bədii yaradıcılıq sahəsində uğurlar qazanmasında elmə bağlılığı, filologiya üzrə elmlər doktoru, ədəbiyyat- şünaslıq ixtisasına görə professor olmasının önəmli rolu vardır. Buna görə həcmcə, formaca kiçiklik, lakin mənaca dolğunluğun hekayə janrının özəlliyi olduğunu yaxşı bilməsi ona bu janrda həm məzmun, həm də formada yüksək bədii yaradıcılıq nümunələri yaratmağa geniş imkan verir.

Dərin məzmunlu, dolğun hadisələri kiçik həcmli hekayə janrında yığcamlaşdırmaqla ümumiləşdirib oxuculara çatdıra bilmək yazıçıdan böyük istedad, sənətkarlıq bacarığı tələb edir. Uzunçuluğun qarşısını almaq, yaxud ona yol verməmək, az sözlə böyük mətləbləri aşkarlamaq imkanı baxımından hekayə janrında yazılmış əsərlərin əvəzi yoxdur. Ona görə də klassik Azərbaycan ədəbiyyatında olduğu kimi, çağdaş ədəbiyyatda da, həmin janrda yazan sənətkar yazıçılar xeyli azdır. Yazıçı Vaqif Sultanlını göstərilən janrda gözəl bədii naxışlarla milli ədəbiyyatı bəzəyərək dolğunlaşdıran istedadlı sənətkar adlandırmaq olar. Onun epik növün hekayə janrında yaratdığı əsərlərinə görə talantlı, səriştəli yazıçı kimi tanınmasında dolğun bilikli ədəbiyyatşünas-tənqidçi olmasının önəmli, həlledici təsir göstərməsinə şübhə yoxdur.

Filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə "Ədəbiy- yat nəzəriyyəsi" kitabında yazır: "Hekayə ədəbiyyatın diş ağrısıdır. Balaca bir diş əsəb sistemini oyadıb bədəni lərzəyə gətirdiyi kimi, hekayə də ədəbiyyatı hərəkətə gətirir. Mirzə Cəlilin hekayələri haqqında doktorluq dissertasiyası yazan unudulmaz müəllimim Firudun Hüseynov kitabına belə ad qoymuşdu: "Adi əhvalatlarda böyük həqiqətlər". Hesab edirəm ki, bu, epik bir janr kimi hekayəyə məxsus başlıca xüsusiyyəti əks etdirir" [13, s. 231].

Böyük filoloq alim, Azərbaycan dilinin mədəni tələblərini dərindən, hərtərəfli yiyələndiyi üçün istedadlı, tanınmış natiq kimi dəyərləndirilən professor Mikayıl Rəfilinin də hekayə haqqında dedikləri doğru və inandırıcıdır. "Hekayədə adətən, insan həyatının yalnız bir epizodu, bir hadisəsi nəql edilir. Əsər müəyyən bir süjet əsasında qurulur. Hekayədə personajların sayı da azdır" [2, s.223].

Qərb ədəbiyyatında hekayənin mənşəyinin antik yunan ədəbiyyatma qədər gedib çıxdığı söylənilir. Avropalıların hekayəyə novella dedikləri, onun öz mövzularını xalq arasında yayılmış əhvalat və sərgüzəştlərdən götürdüyü, novella sözünün yeni xəbər anlamını bildirdiyi, o cümlədən sürətlə inkişaf edib gözlənilməz sonluqla bitən hekayəyə novella deyildiyi məlumdur. Kökü əski qaynaqlarla bağlansa da, novellanın XIII-XIV yüzilliklərdə formalaşdığı məlumdur. XIV əsrin tanınmış italyan yazıçısı C.Bokaçço özünün xalq arasında yayılmış azad sevgi ideyasını ifadə edən novellaların birliyindən yaratdığı "Dekameron" əsərində, G.Mopassan fransız, A.P.Çexov rus, Ə.Haqverdiyev, C.Məmmədquluzadə Azərbaycan ədəbiyyatında hekayə janrının dəyərli nümunələrini yaratmaqla əbədi yaşamaq hüququ qazana bilmişlər.

Hekayə formaca kiçik, lakin məzmunca geniş, dolğun olduğundan oxucular tərəfindən sevilir. Buna görə də dünya ədəbiyyatşünaslığında haqqında yetərincə ədəbi-nəzəri düşüncələr irəli sürülən hekayə janrında yazılmış bədii yaradıcılıq nümunələrinə milli ədəbiyyatda çox rast gəlinir. Belə ki, Azərbaycan ədəbiyyatında bütün tanınmış yazıçılar, bu janrda öz qələmlərini sınamışlar.

Professor Nizaməddin Şəmsizadənin "Ədəbiyyat nəzəriyyəsi" dərsliyində sözlə bağlı çox dəyərli deyimlər diqqəti çəkir. "Söz olmasaydı dünya olmazdı. Allah əvvəlcə sözü, sonra da dünyanı yaratdı" [13, s. 434].

Bədii və mifik düşüncənin uzun, ən aktual problemi söz olmuşdur, desək, heç də yanılmarıq. Bədii yaradıcılıqda sözə obyektiv-elmi münasibətin olduğunu göstərən faktlara da rast gəlinir. Haqqında danışdığımız yazıç-alim yaradıcılığının hər iki qolunda söz üzərində düşünən,onun əzabını duyan şəxsdir.

Vaqif Sultanlı çoxcəhətli və dolğun yaradıcılığı ilə yetərincə tanınmış ədəbi şəxsiyyətlərdən biridir. Onun ömür və tale kitabını olduqca mənalı, maraqlı səhifələr bəzəyir. Yaradıcılıq üslubunun özəlliyi Vaqif Sultanlını başqalarından fərqləndirir. Onun həm bədii, həm də elmi üslubda yazdığı əsərlərlə yaxından tanış olduqda gözümüzdə sadə, təvazökar, nəcib, humanist insan, gözəl, qayğıkeş müəllim, geniş, dərin bilikli alim, istedadlı yazıçı canlanır. Zəhmətlə dolu keçdiyi mənalı həyat yolu Vaqif Sultanlıya uğur qazandırmışdır. Həyat həqiqətləri ilə yaradıcılıq fantaziyasının vəhdətini qovuşduran bədii yaradıcılıq axtarışları ədəbiyyatşünaslığa aid əsərləri, monoqrafiya və dərslikləri real, dolğun faktlar və elmi-nəzəri ümumiləş- dirmələrlə zəngindir. Onun bədii yaradıcılığında ədəbi tənqidə, elmi yaradıcılığında ədəbiyyat nəzəriyyəsinə meyl güclüdür. Vaqif Sultanlının ədəbiyyat haqqında, elmlə bağlı yaradıcılığı nəzəri, ədəbi-estetik müddəalarla dolğundur. Professor Vaqif Sultanlının ədəbiyyatşünaslığın, ədəbi tənqidin çağdaş tələblərinə qədərincə cavab verən məqalə və monoqrafiyaları filoloji, eləcə də ədəbi-estetik görüşlərinin ifadə görümləridir. O yaradıcılığa bədii əsərlər yazmaqla başlamış, yuxarıda qeyd olunduğu kimi, hekayə janrının gözəl bədii parçalarını yaratmaqla Azərbaycan ədəbiyyatını həm məzmun, həm do formaca dolğunlaşdırmışdır.

Vaqif Sultanlının hekayələri məzmun genişliyi ilə oxucunu özünə çəkir. Onun bu janrda yazdığı əsərləri yüksək insani duyğularla zəngindir. Oxucu Vaqif Sultanlının hekayələrini oxuyarkən ən öncə özünü həmin obrazların yerində hiss edir, öz daxili dünyasını onların daxili dünyası ilə qovuşdurur. Hekayələrin dili axıcı və düşündürücüdür. Hər bir hekayənin öz kilid nöqtəsi və hər bir kilid nöqtəsinin açarı vardır. Oxucu Vaqif Sultanlının hekayələrində yüksək səviyyəli yazıçıların ruhunu hiss edə, duya bilir. Onun "Gil ovsun" hekayəsində obrazın hissləri, daxili dünyası o qədər dolğundur ki, həmin dolğunluğu daha çox ən peşəkar sənətkarların yaradıcılığında hiss etmək, görmək mümkündür. Məsələn, "Gil ovsun"dakı obraz L.Tolstoyun "Anna Karenina"nın Leon obrazına bənzəyir, bu iki obrazı bir-biri ilə tutuşdurduqda bir çox oxşar cəhətlər tapmaq olar. Hər iki obrazın daxili dünyası dərindir. Həmçinin hekayənin yazı üslubunu İsmayıl Şıxlının yazı üslubuna bənzətmək mümkündür. İsmayıl müəllimin fəlsəfi psixoloji üslubda yazdığı əsərlər oxucuları heyran etdiyi kimi, "Gil ovsun"u oxuyarkən də bu hissləri yaşamaq, duymaq olur. Qısa bir hekayədə yığcam epizodlar verilmişdir və onlar əsərə ciddi sənətkarlıq çalarları gətirmişdir. Ona görə də bu yaradıcılıq üslubu əsərin maraqla oxumasına səbəb olur.

Vaqif Sultanlının "Kilidli dönüş" hekayəsi də öz cazibədarlığı ilə diqqəti çəkir. Ömrün gənclik çağını hər kəs unudulmaz, yaddan çıxmaz illər təki dəyərləndirir. Hekayənin qəhrəmanı da illər öncə belə bir sevgi yaşamışdır, Aradan uzun illər keçir və evlənsə də, bu sevgi qəlbinin dərinliklərindən silinmir, onu hər an izləyir. Qəhrəman nəhayət, illər sonra ayrıldığı şəhərə, tərk etdiyi sevgisinə doğru geri qayıdır. Lakin indi nə həmin ev, nə də həmin sevgili var. Sevgilisini tapa bilməyən qəhrəman artıq çarəsizlik çuxuruna yuvarlanır.

Hekayə çox maraqlı, psixoloji məzmunlu süjet üzərində qurulmuşdur. Təsvir olunan hadisələr insan psixologiyasının dərinliyinə baş vurur və real həyatı özündə inikas etdirir. Mən düşünürəm ki, əslində hər bir oxucu hekayədə müəyyən qədər özünü tapır, özünü kəşf edir. Məhz hekayəyə rəng çalarlığı verən də bu cəhətdir. Çünki hər bir gəncin həyatında bu çalar az-çox baş verir. Hekayənin mövzusu olduqca aktualdır. Hər iki hekayə xalq dilinə uyğun yazılmış, ədəbi dilin ən uyğun cümlələri seçilərək işlənmişdir.

***(Davamı var)***